**“KİM Construction”**

**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

31 dekabr 2021-ci il tarixinə

# ***MALİYYƏ HESABATLARI***
# ***VƏ***
# ***MÜSTƏQİL AUDİTOR RƏYİ***

**MÜNDƏRİCAT**

**31 DEKABR 2021-ci iIL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ**

HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ

DAİR HESABAT ....... 3

MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY) ....... 4

Mənfəət Zərər haqqında hesabat ....... 5

Maliyyə vəziyyəti haqqında hesabat ....... 6

Kapitalda dəyişiklik haqqında hesabat ....... 7

Pulun hərəkəti haqqında hesabat ....... 8

1. Ümum məlumat ....... 9

2. Əməliyyat mühiti ....... 9

3. Təqdimatın əsasə ....... 9-15

4. Gəlirlərin təhlili ....... 16

5. Maya dəyəri ....... 16

6. Kommersiya xərci ....... 17

7. İnzibati xərclər ....... 17

8. Sair əməliyyar xərcləri ....... 17

9. Maliyyə xərcləri ....... 17

10. Gəlirdən çıxılan vergilər ....... 17

11. Mənfəət vergisi ....... 17

12. Əsas vəsaitlər ....... 18

13. Ehtiyyatlar ....... 18

14. Qısa müddətli debitor borclar ....... 19

15. Pul vəsaitləri və onların ekvivalentləri ....... 19

16. Sair qısa müddətli aktivlər ....... 20

17. Nizamnamə kapitalı ....... 20

18. Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər ....... 20

19. Uzunmüddətli kreditor borcları ....... 20

20. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər ....... 21

21. Qısamüddətli kreditor borcları ....... 21

22. Saır qısamüddətli öhdəliklər ....... 21

23. Hesabat tarixindən sonra baş vermiş hadisələr ....... 21

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş müstəqil auditorun rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "KİM Construction" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Müəssisə") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Müəssisənin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Beynəlxalq Mühasibat Uçotu Standartlarına ("BMUS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqi və məqsədə uyğun təxminlərin və qərarların qəbul edilməsi;
- BMUS- na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi : və
- Əgər yaxın gələcəkdə Müəssisə işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarını daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır;

- Müəssisənin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Müəssisənin maliyyə hesabatlarının BMUS-na uyğun olaraq düzgün hazırlanması və Müəssisənin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 28 aprel 2022-ci il tarixində Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

*Əhmədov Vaqif Məhəmməd oğlu*
***Baş Direktor***
*23 may 2022-ci il*

*Bakı, Azərbaycan Respublikası*

*Məmmədrzayev Mətləb Fərmayıl oğlu*
***Baş mühasib***

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət K.I.M. CONSTRUCTION Limited Liability Company Azerbaijan Republic

## MÜSTƏQİL AUDİTORUN HESABATI
## "KİM Construction" MMC-nin Təsisçi və Rəhbərliyinə:

### *RƏY*

Biz, **"KİM Construction" MMC-nin** (bundan sonra "Müəssisə") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Müəssisənin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspeklərdə düzgün əks etdirir.

### *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Müəssisədən asılı deyilik və biz digər etik öhdəliklərimizi və bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Əsas audit məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

### *Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Müəssisəni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Müəssisənin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

### *Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

***Azər Əsədov***
***"HS Consulting" MMC-nin Direktor - auditoru***
*23 may 2022-ci il. Bakı, Azərbaycan Respublikası*

**"KİM Construction" MMC**

***Mənfəət və zərər haqqında hesabat***

*31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə*

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 4 | 17 420 584,33 | 18 510 141,00 |
| Satışın maya dəyəri | 5 | (15 405 268,35) | (16 905 754,66) |
| **Satış gəliri** | | **2 015 315,98** | **1 604 386,34** |
| Digər fəaliyyət üzrə gəlir | 4 | 28 305,08 | -- |
| Kommersiya xərcləri | 6 | (90 489,98) | (106 778,66) |
| **Cəmi gəlir** | | **1 953 131,08** | **1 497 607,68** |
| **Məzənnə fərqi** | | -- | -- |
| İnzibati xərclər | 7 | (1 056 259,34) | (786 458,20) |
| Sair əməliyyat xərcləri | 8 | (109 508,58) | (191 120,86) |
| Maliyyə xərcləri | 9 | (65 527,47) | -- |
| Gəlirdən çıxılan vergilər | 10 | (185,73) | (165,11) |
| Mənfəət vergisindən əvvəl **mənfəət (zərər)** | 11 | **721 649,96** | **519 863,51** |
| Mənfəət vergisi | | 144 329,99 | 103 972,70 |
| **Hesabat dövrünün xalis mənfəəti(zərəri)** | | **577 319,97** | **415 890,81** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

***Əhmədov Vaqif Məhəmməd oğlu***
***Baş Direktor***

***Məmmədrzayev Mətləb Fərmayıl oğlu***
***Baş mühasib***

*23 may 2022-ci il*
*Bakı, Azərbaycan Respublikası*

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət K.I.M. CONSTRUCTION Limited Liability Company Azerbaijan Republic

*7-19-cu səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.*

**"KİM Construction" MMC**

***Maliyyə vəziyyəti haqqında hesabat***

*31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə*

*(Azərbaycan manatı ilə)*

| **Aktivlər** | **Qeydlər** | **31.12.2021** | **31.12.2020** |
|---|---|---|---|
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsiatlərinin ekvivalentləri | 15 | 117 616,91 | 6 284,44 |
| Qısamüddətli debitor borcları | 14 | 548 588,86 | -- |
| Ehtiyatlar | 13 | 973 629,47 | 2 567 984,22 |
| Digər qısamüddətli aktivlər | 16 | 497 279,59 | -- |
| Təxirə salınmış vergi | | | |
| **Cəmi cari aktivlər** | | **2 137 114,83** | **2 574 268,66** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 12 | 210 677,61 | 293 926,12 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **210 677,61** | **293 926,12** |
| **Cəmi aktivlər** | | **2 347 792,44** | **2 868 194,78** |
| **Kapital və öhdəliklər** | | | |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Malsatan və podratçılara kreditor borcları | 21 | -- | -- |
| Mənfəət vergisi üzrə öhdəlik | | | |
| Vergi və başqa fondlar üzrə öhdəlik | | -- | -- |
| Personal ilə hesablaşma | | | |
| Dividendlər | | | |
| Qısamüddətli bank kreditləri | | -- | -- |
| Digər cari öhdəliklər | 22 | 453 085,19 | 847 936,74 |
| **Cəmi cari öhdəliklər** | | **453 085,19** | **847 936,74** |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 18 | 339 718,04 | -- |
| Uzunmüddətli kreditor borcları | 19 | -- | -- |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **339 717,04** | **--** |
| **Cəmi öhdəliklər** | | **792 803,23** | **847 936,74** |
| Kapital və ehtiyatlar | | | |
| Ödənilmiş (nizamnamə) kapitalı | 17 | 20,00 | 20,00 |
| Xalis mənfəət | | 780 988,74 | 1 246 257,57 |
| Bölüşdürülməmiş mənfəət və digər rezervlər | | 773 980,47 | 773 980,47 |
| **Cəmi kapital və ehtiyatlar** | | **1 554 989,21** | **2 020 258,04** |
| **Cəmi kapital və öhdəliklər** | | **2 347 792,44** | **2 868 194,78** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

***Əhmədov Vaqif Məhəmməd oğlu***
***Baş Direktor***

***Məmmədrzayev Mətləb Fərmayıl oğlu***
***Baş mühasib***

*23 may 2022-ci il, Bakı, Azərbaycan Respublikası*

*7-19-cu səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.*

**"KİM Construction" MMC**

## *Kapitalda dəyişikliklər haqqında hesabat*

*31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə*
*(Azərbaycan manatı ilə)*

| | **Nizamnamə kapitalı** | **Əlavə kapital və Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi kapital** |
|---|---|---|---|
| **01 yanvar 2020-ci il tarixinə qalıq** | **20,00** | **2 050 238,04** | **2 050 258,04** |
| Dövr üzrə xalis mənfəət və zərər | | -- | -- |
| Kapital ehtiyatları | | | |
| Elan edilmiş dividendlər | | | |
| Mənfəətdən istifadə | | (30 000,00) | (30 000,00) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **20,00** | **2 020 238,04** | **2 020 258,04** |
| Dövr üzrə xalis mənfəət və zərər | | | |
| Kapital ehtiyatları | | | |
| Elan edilmiş dividendlər | | | |
| Mənfəətdən istifadə | | (465 268,83) | (465 268,83) |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **20,00** | **1 554 969,21** | **1 554 989,21** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

***Əhmədov Vaqif Məhəmməd oğlu***
***Baş Direktor***

***Məmmədrzayev Mətləb Fərmayıl oğlu***
***Baş mühasib***

*23 may 2022-ci il*
*Bakı, Azərbaycan Respublikası*

*7-19-cu səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.*

"KİM Construction" MMC

## *Pul vəsaitlərinin hərəkəti haqqında hesabat*

*31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə*

*(Azərbaycan manatı ilə)*

| Göstəricilərin adı | Qeydlər | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| *Pul daxilolmamaları:* | | | |
| İşçi heyətindən pul vəsaitlərinin daxilolmaları | | | |
| Təsərrüfat subyektləri tərəfindən təmin edilən mal və xidmətlərin qiymətləri üzrə yaranan pul vəsaitlərinin daxilolmaları | 15 | 17 438 857,63 | 17 687 491,86 |
| Törəmə (asılı) müəssisələri üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| Təhtəlhesab şəxsdən | | | |
| Məqsədli maliyyələşmə, bank kreditləri üzrə pul vəsaitlərinin daxilolmaları | 18 | 500 000,00 | -- |
| Məzənnə fərqi mədaxil | | | |
| Sair daxilolmalar | | -- | -- |
| ***CƏMİ DAXİLOLMALAR*** | | **17 938 857,63** | **17 687 491,86** |
| *Pul xaricolmaları:* | | | |
| Vergi və başqa fondlar üzrə pul vəsaitlərinin ödənilməsi | | 2 041 206,44 | 642 602,90 |
| Mallara və xidmətlərə görə təchizatçılara pul vəsaitlərinin ödənişləri | | 15 089 864,88 | 16 079 275,68 |
| İşçi heyətinə pul vəsaitlərinin ödənişləri | 5 | 459 107,87 | 548 813,35 |
| Sığorta şirkətinin sığorta mükfatları və ya iddialar, annuitetlər və digər müavinət siyasətləri üzrə pul vəsaitlərinin ödənişləri | 7 | 11 536,54 | |
| Törəmə (asılı) müəssislərə ödənişlər | | | |
| Təhtəlhesab şəxsə | | | |
| Bank kreditləri və faizləri üzrə pul vəsaitlərinin ödənişləri | 18 | 225 809,43 | -- |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar olan əmlak vergisi və ya mənfəət vergisi ilə bağlı (müvafiq olan təqdirdə) pul vəsaiti ödənişləri | | | |
| Məhkəmə prosesləri ilə əlaqədar pul vəsaitlərinin ödənişləri | | | |
| Məzənnə fərqi məxaric | | | |
| Sair ödəinşlər | | -- | 454 819,66 |
| CƏMİ XARİCOLMALAR | | **17 827 525,16** | **17 725 511,59** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **(111 332,47)** | **(38 019,73)** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | (111 332,47) | (38 019,73) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin əvvəlinə olan qalıq | | 6 284,44 | 44 304,17 |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna olan qalıq** | 15 | **117 616,91** | **6 284,44** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

***Əhmədov Vaqif Məhəmməd oğlu***

***Baş Direktor***
*23 may 2022-ci il*
*Bakı, Azərbaycan Respublikası*

***Məmmədrzayev Mətləb Fərmayıl oğlu***

***Baş mühasib***

*7-19-cu səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.*

## 1. CƏMİYYƏT HAQQINDA MƏLUMAT

"KİM Construction" MMC (bundan sonra "Müəssisə") 17 Sentyabr 2009-ci ildə təsis (VÖEN 1302058471) edilmişdir.

Müəssisənin nizamnamə kapitalının miqdarı 20 manat məbləğində elan edilmiş və ödənilmişdir.

Müəssisə Azərbaycan Respublikasının qanunvericiliyi ilə aşağıdakı məqsədlər üçün yaradılmışdır:

- İxtisaslaşdırılmış tikinti və təmir işləri;
- Müəssisə AR-nın qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul ola bilər

31 dekabr 2021-ci və 31 dekabr 2020-ci il tarixlərinə Müəssisənin nizamnamə kapitalında təsisçilərin payı aşağıdakı kimi olmuşdur:

| **Təsisçilər** | **31.12.2021** | **31.12.2020** |
|---|---|---|
| Abasquliyev Samir Akif oğlu | 50% | 50% |
| Dadaşeva Kamilə Abbasovna | 50% | 50% |
| **Cəmi** | **100%** | **100%** |

Qanuni təmsilçi: Əhmədov Vaqif Məhəmməd oğlu

Müəssisənin hüquqi ünvanı: AZ1041 Bakı şəhəri Yasamal rayonu, Mətbuat propekti 58, mənzil 4.

Bu maliyyə hesabatları 28 aprel 2022-ci il tarixində Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

## 2. ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçilən iqtisadi islahatlar tikinti sektorunun da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da müxtəlif əlavə və dəyişikliklərə məruz qalır.

## 3. TƏQDİMATIN ƏSASI

### Təqdimatın əsası

Müəssisə mühasibat yazılışlarını Azərbaycan mühasibat uçotu qaydaları əsasında aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat qaydaları əsasında hazırlanmış və zəruri düzəlişlər edilmişdir.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

**Əməliyyat valyutası**

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır (AZN).

## UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

**Uçot metodu**

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

**Əsas əməliyyat gəliri**

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır.

**Digər gəlirlər**

Digər gəlirlər aidiyyəti əməliyyatlar başa çatdıqda gəlirin kreditinə yazılır. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyd olunur.

**Pul vəsaitləri və ekvivalentləri**

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

Pul vəsaitlərinin ekvivalentləri – ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qisamüddətli qoyuluşlardır. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

**Banklarda yerləşdirilmiş əmanətlər**

Banklarda yerləşdirilmiş əmanətlər qarşı tərəfə pulun birbaşa verilməsindən yaranır. Banklarda yerləşdirilmiş əmanətlər pul vəsaitinin qarşı tərəfə ödəmə şəklində verildikdə qeydə alınır.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Ödəniş tarixinədək saxlanılan investisiyalar saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlardır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

**Alınacaq vəsaitlər və qabaqcadan ödəmələr**

Alınacaq vəsaitlər göstərilmiş xidmətlər nəticəsində yaranan debitor borclardan və digər vəsaitlərdən ibarətdir. Debitor və kreditor borcları bunun üçün hüquqi əsas olduqda əvəzləşdirilir. Müəssisə xalis və ya hesablaşma niyyətinə malik olur. Alınacaq vəsaitlər müqavilə bağlandığı tarixdə qeydə alınır və xidmətlər göstərildiyi zaman mənfəət və zərər hesabatında yazılır. Qabaqcadan ödəmələr ödəmə tarixində qeydə alınır və xidmətlər yerinə yetirildikdə mənfəət və zərər hesabatına daxil edilir.

**Torpaq, tikili, avadanlıq və amortizasiya**

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır (ilkin dəyər modeli). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələristifadə etməklə hesablanır:

| | |
|---|---|
| Binalar, tikililər və qurğular | 7%-ə qədər |
| Maşın və avadanlıqlar | 20%-ə qədər |
| Hesablama texnikası | 25%-ə qədər |
| Nəqliyyat vasitələri | 25%-ə qədər |
| Digər aktivlər | 20%-ə qədər |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərinə qədər silinir.

**Qeyri-maddi aktivlər və amortizasiya**

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilməlidir;

- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxil olacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyalardan hər-hansı yerinə yetirilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərcləri kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Müəssisə ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər amortizasiya oluna bilərlər, faydalı istifadə müddətləri qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya oluna bilməzlər. Müəssisə faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlərə amortizasiyanı "azalan qalıq metodu" ilə hesablayır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqayisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşmüş olduqda, ona amortizasiyanın standart qaydalarının tətbiq edilməsi davam etdirilməlidir.

**Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyər və ehtimal edilən satış dəyərinə uyğun bazar dəyəri ilə qiymətləndirilirlər.

**Vergilər**

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

***Mənfəət vergisi***

Mövcud vergi qanunvericiliyinə əsasən müəssisə göstərdiyi fəaliyyət sahəsinə uyğun olaraq mənfəət vergisi üzrə ödəyici olmuşdur.

## İnvestisiyalar

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

### *Ödəniş tarixənədək saxlanılan investisiyalar*

Adətən aşağıdakı beş meyara uyğun olduğu zaman investisiyalar "ödəniş müddətinə qədər saxlanılan investisiyalar" kimi təsnifləşdirilir:

qeyri-törəmə aktivlərdir;

sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;

sabit ödəmə müddətinə malik olmalıdırlar;

müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;

müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malikdir.

## Maliyyə alətləri və onların ədalətli dəyəri

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansi sənəd və ya müqavilədir. Bu ikili aspekt hər zaman mövcüd olmalıdır. Əgər bu aspektlərdən hər hansı biri mövcüd deyilsə, onda müqavilə maliyyə aləti deyildir.

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkası olan bazar qiymətləri ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Müəssisə tərəfindən mövcüd bazar məlumatlarından (əgər mövcüd olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcüd bazar məlumatlarından istifadə edir.

### *Maliyyə aktivləri*

Pul vəsaiti, digər müəssisədə kapital aləti (yəni, bir qayda olaraq səhmlər), digər müəssisədən pul vəsaiti almaq üzrə müqavilə hüququ, müəssisənin əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və öhdəliklərini mübadilə etməsi üzrə müqavilə hüququ, müəssisənin ödənişi öz payların potensial olaraq dəyişən sayı formasında qəbul etməsini tələb edən müqavilə hüququ, müəssisənin öz payların sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə maliyyə aktivləri hesab olunur.

### *Maliyyə öhdəlikləri*

Digər müəssisəyə pul vəsaitinin ödənilməsi ilə əlaqədar müqavilə öhdəliyi (kreditor borclar, kreditlər), müəssisə üçün əlverişli ola bilməyən maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mübadiləsi ilə əlaqədar olan müqavilə öhdəliyi, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında həyata keçirməsini tələb edən müqavilə öhdəliyi, müəssisənin öz payların sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə öhdəliyi maliyyə öhdəlikləri hesab olunur.

### *Maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyəri və effektiv faiz metodu*

Bu iki anlayış maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma dəyəri üzrə tələb olunan hesablamalara aid edilir. Amortizasiya edilmiş dəyər sadəcə olaraq müddət üzrə pul vəsaitlərinin hərəkətini deyil, aktiv (və ya öhdəlik) müddətində qazanılmış real maliyyə gəlirlərini (və ya yaranmış məsrəfləri) nəzərdə tutur. Effektiv faiz dərəcəsi diskontlaşdırma əmsalı kimi istifadə olunaraq gələcək gəlir axını (investisiyadan gələn) xalis balans dəyərinə endirilir. Həmin faiz dərəcəsi sonradan aktivin əldə edildiyi hər bir müddət üzrə əldə olunan maliyyə gəlirlərini müəyyənləşdirdikdən sonra, aktivin balans dəyəri hesablanır.

### Qiymətləndirilmiş öhdəliklər

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik kimi tanınır.

### Xarici valyuta əməliyyatı

Müəssisənin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) Müəssisənin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcüd olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta mzənnəsi istifadə olunmaqla çevrilir. Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsi ilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsi ilə tanındığı hallarda

yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və ya zərərlər kapital vasitəsi ilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsi ilə tanınır.

Xarici valyuta balansında istifadə olunan əsas dərəcə Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") rəsmi məzənnələri əsasında aşağıda göstərilib:

| | **31.12.2021** | **31.12.2020** |
|---|---|---|
| AZN/ 1 ABŞ dolları | 1,7000 | 1,7000 |
| AZN/ 1 Avro | 1,9265 | 2,0890 |

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

**İşçi heyəti ilə bağlı xərclər və aidiyyəti ayırmalar**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Müəssisə işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmalarını nəzərdə tutur. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Müəssisə Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Müəssisədə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

## 4. GƏLİRLƏRİN TƏHLİLİ

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərində başa çatmış illər üzrə Müəssisənin gəlirləri aşağıdakı kimi olmuşdur:

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | **17 420 584,33** | **18 510 141,00** |
| **Digər əməliyyat gəlirləri , ondan** | -- | -- |
| Əsas vəsaitlərin təqdim edilməsi | 28 305,08 | -- |
| Digər gəlirlər | -- | -- |
| Müsbət məzənnə fərqi | -- | -- |
| **Cəmi gəlirlər** | **17 448 889,41** | **18 510 141,00** |

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixində başa çatmış illər üzrə Müəssisə üzrə satışın maya dəyəri, inzibati, kommersiya və sair əməliyyat xərcləri aşağıdakı kimi olmuşdur:

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| **5. Satışın maya dəyəri** | 15 405 268,35 | 16 905 754,66 |
| Mallar | 1 637 956,71 | 3 129 924,32 |
| Bilavasitə gəlirin əldə edilməsi ilə bağlı xərclər | 13 767 311,64 | 13 775 830,34 |

| | | |
|---|---|---|
| **6. Kommersiya xərcləri** | **90 489,98** | **106 778,66** |
| Kommunal xərcləri | 1 068,00 | 8 245,87 |
| Rabitə xərci | 1 930,46 | 1 780,46 |
| Amortizasiya xərci | 87 491,52 | 96 752,33 |
| **7. İnzibati xərclər** | **1 056 259,34** | **786 458,20** |
| Əmək haqqı | 459 107,87 | 469 723,40 |
| Sosial sığorta haqqları | 119 368,89 | 79 089,95 |
| İcarə haqqı | 133 786,47 | 134 438,79 |
| Yanacaq xərci | 306 011,85 | 20 600,00 |
| Bank xərci | 25 327,72 | 76 901,34 |
| Sığorta xərci | 11 536,54 | 5 704,72 |
| Ezamiyyə xərcləri | -- | -- |
| Nəqliyyat xərci | 1 120,00 | -- |
| **8. Sair əməliyyat xərcləri** | **109 508,58** | **191 120,86** |
| Fiziki şəxslər tərəfindən yerinə yetirilən təmir tikinti işləri | 109 508,58 | 191 120,86 |
| **9. Maliyyə xərcləri** | **65 527,47** | -- |
| Kredit faizi | 65 527,47 | -- |
| **10. Gəlirdən çıxılan vergilər** | **185,73** | **165,11** |
| Torpaq vergisi | -- | -- |
| Əmlak vergisi | **185,73** | **165,11** |

## 11. MƏNFƏƏT VERGİSİ

Müəssisə vergi hesabatlarını Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyinin tələbləri əsasında hazırlayır və bu tələblər maliyyə hesabatlarının tələblərindən fərqlənir. 2021-ci ilin maliyyə nəticələrinə görə Müəssisə 144 329,99 manat mənfəət əldə etmişdir. Müəssisə tərəfindən 2021-ci il üzrə Mənfəət vergisi bəyannaməsi vergi orqanına təqdim edilməmişdir.

## 12. ƏSAS VƏSAİTLƏR

| | Binalar və qurğular | Maşınlar və avadanlıqlar | Nəqliyyat vasitələri | Hesablama texnikası | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01.01.2020-ci il tarixə qalıq dəyəri** | -- | **4 745,60** | **217 177,21** | -- | **13 600,00** | **235 522,81** |
| 2020-ci ildə alınmış | -- | -- | 155 155,64 | -- | -- | **155 155,64** |
| 2020-ci ildə köhnəlmə | -- | 949,12 | 93 083,21 | -- | 2 720,00 | 96 752,33 |
| 2020-ci ildə satılmış | -- | -- | -- | -- | -- | -- |
| **31.12.2020-ci il tarixə qalıq dəyəri** | -- | **3 796,48** | **279 249,64** | -- | **10 880,00** | **293 926,12** |
| 2021-ci ildə alınmış | -- | 13 410,00 | -- | -- | -- | 13 410,00 |
| 2021-ci ildə köhnəlmə | -- | 3 441,29 | 62 736,14 | -- | 2 176,00 | 68 353,43 |
| 2021-ci ildə satılmış | -- | -- | 28 305,08 | -- | -- | 28 305,08 |
| **31.12.2021-ci il tarixə qalıq dəyəri** | -- | **13 765,19** | **188 208,42** | -- | **8 704,00** | **210 677,61** |

## 13. EHTİYYATLAR

| | **31.12.2021** | **31.12.2020** |
|---|---|---|
| Əsas materiallar | 6 855,55 | 212 265,55 |
| Ehtiyatlar | 966 773,92 | 2 355 718,67 |
| | **973 629,47** | **2 567 984,22** |

## 14. QISAMÜDDƏTLİ DEBİTOR BORCLARI

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Sifarişçilərin qısamüddətli debitor borcları | -- | -- |
| Verilmiş avanslar | -- | -- |
| Büdcə ilə hesablaşmalar | -- | -- |
| Əmək haqqı | -- | -- |
| Sair debitor borcu | 548 588,86 | -- |
| | **548 588,86** | **--** |

## 15. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Kassa vəsaitləri | -- | -- |
| Banklardakı hesablaşma hesabları | 94 068,47 | 6 284,44 |
| - Azərbaycan manatı | 94 068,47 | 6 284,44 |
| - Xarici valyuta | -- | -- |
| Banklardakı xüsusi hesablar | -- | -- |
| ƏDV depozit hesabı | 23 548,44 | -- |
| | **117 616,91** | **6 284,44** |

### 16. SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Gələcək dövrün xərcləri | -- | -- |
| Verilmiş avanslar | -- | -- |
| Digər aktivlər | 497 279,59 | -- |
| | **497 279,59** | **--** |

### 17. NİZAMNAMƏ KAPİTALI

Nizamnamə kapitalı ilkin dəyər ilə tanınır. Təsisçilərin payı vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavə etdikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır. Müəssisənin nizamnamə kapitalı 20 manat məbləğində elan edilmiş və ödənilmişdir.

### 18. UZUNMÜDDƏTLİ FAİZ XƏRCLƏRİ YARADAN ÖHDƏLİKLƏR

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Bank kreditləri | 339 718,04 | -- |
| | **339 718,04** | **--** |

### 19. UZUNMÜDDƏTLİ KREDİTOR BORCLARI

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Malsatan və podratçılara uzunmüddətli kreditor borcu | -- | -- |
| | **--** | **--** |

## 20. VERGİ VƏ SAİR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Vergilər üzrə öhdəliklər | -- | -- |
| Sosial ayırmalar üzrə hesablaşmalar | -- | -- |
| | **--** | **--** |

## 21. QISAMÜDDƏTLİ KREDİTOR BORCLARI

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| İcarə üzrə öhdəliklər | -- | -- |
| Malsatan və podratçılara qısamüddətli kreditor borcu | -- | -- |
| Digər qısamüddətli kreditor borc | -- | -- |
| | **--** | **--** |

## 22. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Alınmış avanslar | 453 085,19 | 847 936,74 |
| Digər öhdəliklər | -- | -- |
| | **453 085,19** | **847 936,74** |

## 23. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövr ərzində Müəssisədə hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.